**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ**

---

| | |
|---|---|
| **Aktın növü:** | *Naxçıvan Muxtar Respublikasi Ali Məclisi Sədrinin Fərmanı* |
| **Qəbul edildiyi tarix:** | *01.03.2011* |
| **Qeydiyyat nömrəsi:** | *11-IV FR* |
| **Adı:** | *Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsi əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi, gömrük işi sahəsində prosedurların sadələşdirilməsi və şəffaflığın artırılması ilə əlaqədar bəzi tədbirlər haqqında* |
| **Rəsmi dərc edildiyi mənbə:** | |
| **Qüvvəyə minmə tarixi:** | *01.03.2011* |
| **Vahid hüquqi təsnifatı üzrə indeks kodu:** | *360.010.000* |
| **Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi:** | *13201103010011* |
| **Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix:** | *15.02.2012* |

---

**Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsi əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi, gömrük işi sahəsində prosedurların sadələşdirilməsi və şəffaflığın artırılması ilə əlaqədar bəzi tədbirlər haqqında**

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

# FƏRMANI

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və mülki işçilərinin sosial müdafiəsini gücləndirmək, gömrük işi sahəsində prosedurları sadələşdirmək və şəffaflığı artırmaq məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası gömrük sisteminin büdcədənkənar inkişaf fonduna daxil olan vəsaitin 25 faizi Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və mülki işçilərinin aylıq vəzifə maaşlarına əlavənin verilməsi üçün istifadə olunsun.

2. Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsi, Daxili İşlər və Ədliyyə nazirlikləri muxtar respublika ərazisinə idxal edilən nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi, dövlət qeydiyyatının aparılması, daimi uçota alınması, nəqliyyat vasitəsinin dövlət qeydiyyat şəhadətnaməsinin və dövlət qeydiyyatı nişanının verilməsi, habelə nəqliyyat vasitələrinə sahiblik, istifadə və sərəncam hüquqlarının verilməsi ilə əlaqədar prosedurların “bir pəncərə” prinsipi əsasında sadələşdirilməsini təmin etsinlər.

3. Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsi:

3.1. qanunvericiliklə müəyyən edilmiş bütün gömrük ödənişlərinin yalnız bank və ya plastik kart vasitəsilə alınmasını təmin etsin;

3.2. gömrük orqanlarında göstərilən xidmətlərin operativliyini və şəffaflığını artırmaq məqsədilə müraciət edən şəxslərin qəbul edilməsi ardıcıllığının müəyyən olunması üçün elektron idarəetmə sistemi (“elektron növbə”) tətbiq etsin;

3.3. Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşları tərəfindən qulluq vəzifələrinin icrası zamanı qanunvericiliyin tələblərinə ciddi riayət edilməsinə nəzarəti gücləndirsin.

4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

5. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **VASİF TALIBOV**

Naxçıvan şəhəri, 01 mart 2011-ci il

№ 11-IV FR